**Teymur Kərimli**
*akademik*

# "Molla Nəsrəddin" – 10 cildliyinin V cildinə ön söz

1906-1931-ci illərdə müəyyən fasilələrlə Azərbaycanın mütəfəkkir yazıçı-dramaturqu və istedadlı publisisti Cəlil Məmmədquluzadənin (1869-1932) baş redaktorluğu ilə Tiflis, Təbriz və Bakıda nəşr edilmiş "Molla Nəsrəddin" jurnalı təkcə Azərbaycan üçün deyil, bütün Türk dünyası və İslam Şərqi üçün, hətta müəyyən məsələlərdə qlobal səviyyəli misilsiz əhəmiyyət daşıyan, irəli sürdüyü kəskin sosial-psixoloji, iqtisadi-siyasi, mədəni-mənəvi, humanitar problemlərlə, həqiqi sənət əsəri olan nəsr və nəzm örnəkləri və kəskin, müasir mövzulu karikaturaları ilə bu gün də aktuallığını itirməyən şəkilli satirik bir toplu olmuşdur.

Əksər nömrələri ərəb əlifbası ilə işıq üzü görən bu jurnal Azərbaycanda gedən əlifba islahatları ilə bağlı olaraq, əski əlifbanı bilməyən həmvətənlərimiz, xüsusən də gənc nəsil üçün əlçatmaz olduğundan, onun milli-mənəvi dəyər kimi çağdaş nəslə çatdırılmasına ehtiyac yaranmışdır. Bu səbəbdən də Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Mətnşünaslıq şöbəsində keçən yüzilliyin ikinci yarısından etibarən uzun illər boyu jurnalın tam mətni ərəb əlifbasından kiril əlifbasına transfoneliterasiya edilmişdir.

Sovet hökümətinin Azərbaycanın klassik irsinə məlum münasibəti nəticəsində 12 cilddə çapı nəzərdə tutulan bu jurnalın yalnız bir cildi kiril əlifbası ilə işıq üzü görmüş, Moskvanın qarət etdiyi təbii sərvətlərimizdən xalqımıza vəsait ayrılmadığına görə makinadan çıxmış əlyazması uzun illər Ədəbiyyat İnstitutunun dəmir seyflərində toz-torpaq içində yatıb qalmışdır.

Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra gənc dövlətin qarşılaşdığı maliyyə çətinliklərinə baxmayaraq, 1996-2011-ci illər arasında jurnalın tam mətni latın qrafikalı Azərbaycan əlifbası ilə 8 cilddə 700 nüsxə, nəfis şəkildə rəngli illüstrasiyalarla çap edilmiş və "Molla Nəsrəddin"sevərlərin istifadəsinə verilmişdir. Əlbəttə, əhalisi artıq 10 milyona yaxınlaşan, 100 minlərlə ziyalı ordusuna, vətənpərvər, millətsevər gənclərə malik olan suveren Azərbaycan üçün və ölkəmizdən kənarda yaşayan on milyonlarla həmvətənlərimiz üçün bu rəqəmin çox cüzi olduğu heç kimə sirr deyildir. Məhz bu səbəbdən də "Şərq-Qərb" nəşriyyatının vətənpərvərlik missiyası sayəsində jurnalın 10 cilddə yeni nəşrinin həyata keçirilməsi qərara alınmışdır.

Oxucuların ixtiyarına verilən V cildi 1913-cü ilin 2-29-cu (28 say), 1914-cü ilin 1-25-ci (25 say), 1917-ci ilin 1-26-cı (26 say), 1921-ci ilin Təbrizdə çıxan ilk say – cəmi 80 nömrə salınmışdır. Göründüyü kimi, çar Rusiyasında baş verən ictimai-siyasi kataklizimlərin birbaşa nəticəsi olaraq, 1915-1916-cı və 1918-1920-ci illər arasında 5 ildən artıq bir dövr ərzində jurnal öz fəaliyyətini

dayandırmalı olmuşdur. 1917-ci ilin birinci sayında "İdarədən" adlı baş məqaləsində Mirzə Cəlil bu barədə yazırdı:

"Möhtərəm oxucularımıza məlumdur ki, jurnalımız iki il dayanıb çıxmır.

Burada iki mətləb var ki, oxucularımız əlbəttə onu bilmək istəyəcəklər: Biri jurnalın dayanmağının səbəbi, biri də budur ki, aya bu iki ilin müddətində ki, jurnal çıxmışdı, pəs mən Molla Nəsrəddin harada idim və nə işlə məşğul idim, ya bəlkə bekar gəzib dolanırdım, ya ki, müftəcə yeyib yatırdım?

Qabaqkı suala cavabım yoxdur, ondan ötrü ki, jurnalın dayanmağının səbəblərini axtarsaq, çox səbəb tapılar, ya bəlkə heç bir səbəb tapılmaz, amma söz burasındadır ki, bu barədə danışmağı burada hələliklə lazım görmürük".

Öz ezop üslubuna sadiq qalan Mirzə Cəlil, əslində, jurnalın çıxmamasının səbəbinin nə olduğunu dərrakəli oxucuya çatdırmış olur.

Bu illərdə də jurnalın felyeton və satiralarında, ictimai, siyasi və həyatı karikaturalarında Azərbaycan cəmiyyətinin, İslam aləminin, güc kultuna tapınan dünyanın ağrılı, həlli vacib ictimai-siyasi və ictimai-mədəni problemləri, eləcə də müxtəlif şəhər və bölgələrdən daxil olan xəbərlər öz əksini tapmışdır.

İlk saylarından "Molla Nəsrəddin"in qaldırdığı problemlər bu gün də aktualdır və bu unikal dərginin müasirliyi və ölməzliyi də elə bundadır.

Nəşrə başladığı ilk illərdə oxuculara təqdim ediləndən bir qədər fərqli – daha iri formatda, 8 səhifə həcmində nəşr olunan hər bir nömrənin 4 səhifəsi yazıdan, 4 səhifəsi isə şəkildən ibarətdir. Adətən, 2-ci, 3-cü, 6-cı və 7-ci səhifələrdə mətn, 1-ci, 4-cü, 5-ci, 8-ci səhifələrdə isə şəkil (əksər hallarda mövzusu Cəlil Məmmədquluzadə tərəfindən verilərək rəssamın çəkdiyi karikatur) yerləşdirilir. Mənalı şəkilaltı sözlər mətləbi daha açıq çəkildə oxucuya çatdırmağa yardımçı olur. Bir neçə nömrədə senzuradan keçməyən şəkillərin yeri boş saxlanılmış və "Bizdən asılı olmayan səbəblərə görə bu yer boş qaldı" izahı verilmişdir. Bəzən isə heç bir izah verilmədən boş çərçivəyə çalın-çarpaz qırmızı xətt çəkdiyini görürük. 1913-cü ilin 29-cu sayının 1-ci səhifəsində olduğu kimi.

Beynəlxalq mövzular, xüsusən İslam dünyasının hakimi-mütləqləri olan Osmanlı sultanı və İran şahının yarıtmaz fəaliyyəti, daha doğrusu, fəaliyyətsizliyi nəticəsində "sevgili millətin" yoxsulluq və cəhalət girdabına yuvarlanması və bu işdə o zamankı Avropa güclərinin xəyanəti yenə də mollanəsrəddinçilərin ürəyini parçalayan mövzular sırasında qalır. Bu hökmdarın tarix sahəsindən silinməsi qısa bir müddət ərzində qoca "Molla Nəsrəddin"i azacıq sevindirsə də, onların yerinə gələnlərin də millət dərdindən daha çox mənsəb davasına çıxmaları yenə də vətən və millət dostlarını dərin fikirlərə qərq edir. 1913-cü ilin 4-cü sayında verilmiş siyasi karikatur türklərin düşmənlərlə vuruşmaq əvəzinə bir-birlərini qırması acı bir təəssüfün obyekti olur. Düşmən mərmilərinin qulaqlarının dibində partladığı bir zamanda Türkiyədəki "İttihadçılar" və "Etilafçılar"ın ölüm-dirim savaşını təsvir edən şəklin altında onların dilindən yazlıb:

"Hələ qabaqca qoy öz zarafatımızı qurtaraq, sonra düşmənə cavab verək".

Cənubi Qafqazın 1920-ci ildə bolşevik istilasından sonra Təbrizə mühacirət edən Cəlil Məmmədquluzadə orada jurnalın cəmi 8 sayını nəşr etdirdi. Ancaq

buna baxmayaraq, Təbriz dövrü də “Molla Nəsrəddin” jurnalının tarixində bütöv bir mərhələ sayılır. Bəlkə də buna görə ki, Güney Azərbaycan və İran mövzusu jurnal üçün təzə deyildi, elə ilk saylarından “o tay Vətənin” problemləri mollanəsrəddinçiləri dərindən-dərinə düşündürürdü .

İndinin özündə belə aktuallığını və satirik ciddiyətini qoruyub saxlayan, milli sərvətimiz olan “Molla Nəsrəddin” jurnalının transfoneliterasiya olunmuş nəfis nəşri geniş oxucu auditoriyasına ünvanlanır.